## Anesteziologiya, reanimatologiya, intensiv terapiya kafedrası

## 2022-2027-ci (5 il) illər üçün inkişaf strategiyası

| № | Nəzərdə tutulan (görüləcək) işlər | Əsaslandırılması və həyata keçirilməsi yolları |
|---|---|---|
| 1 | Kafedranın "Anesteziologiya, reanimatologiya, intensiv terapiya kafedrası" şəklində adlandırılması haqqında vəsatət qaldırılması | Anesteziologiya və reanimatologiya kafedrasında özündə 3 bölməni əhatə edən anesteziologiya, reanimatologiya və intensiv terapiya (anesteziologiya-ağrısızlaşdırma, reanimatologiya-canlandırma, intensiv terapiya-heyatı vacib funksiyaları idarə və korreksiya etmə) fənni tədris edilir. Bu qəbildən olan kafedralar öncə "anesteziologiya kafedrası", sonralar "anesteziologiya və reanimatologiya kafedrası" adları altında inkişaf tarixi keçmişlər. Fəqət son 10 illiklər ərzində bu fənnin 3-cü tərkib hissəsi olan "intensiv terapiya" bölməsi genişlənərək proqramın təxminən 50%-ni təşkil edir. Odur ki, kafedranın adında bu bölmənin yer alması məqsədəmüvafikdir. Hazırda bir sıra ölkələrin universitetlərində "Anesteziologiya, reanimatologiya, intensiv terapiya" kafedraları fəaliyyət göstərir. |
| 2 | Kafedrada ingilis dilində dərs aparan müəllimlərin sayının 50%-ə çatdırılması | Univeristetdə ingilis bölməsində oxuyan tələbələrin sayının ilbəil artması uyğun olaraq bizim kafedrada da ingilis dilində tədris aparan müəllimlərin sayının artmasını günün tələbi edir. Hazırda bu qəbildən olan müəllimləri sayı 2-dir. Əlavə 2 müəllimin yaxın vaxtlarda tədrisə cəlb olunması planlanır. 5 il ərzində bu sayın 6-7 çatdırılması nəzərdə tutulur. Müəllimlərin ingilis dilində hazırlanması Universitetin nəzdində yaradılan kurslar hesabına aparılaraq sonda xüsusi imtahan verməklə yekunlaşacaqdır. |
| 3 | Müəllimlərin ixtisas artırma kurslarına (tədbirlərinə) cəlb olunması | Müəllimlərin ixtisas artırması aşağıdakı şəkillərdə düşünülür:<br>a) Müəllimlərin dərslərdə qarşılıqlı iştirakı, o cümlədən, təcrübəli dosent və professorların masterklass şəklinə apardıqları dəsrlərdə müəllim heyyətinin iştirak etməsi<br>b) Univeristetdə təşkil olunmuş metodik konfranslarda və kurslarda əməkdaşların iştirakı<br>c) Xarici ölkələrin (Türkiyə, Rusiya və s.) universitetlərinin eyni adlı kafedralarında ixtisas artırma kurslarında olmaq |
| 4 | Kafedrada xüsusi tədris-metodik vəsitələr ilə təchiz olunmuş tədris otağının təşkili | "Anesteziologiya, reanimatologiya, intensiv terapiya" fənninin tədrisi bir sıra vacib praktik vərdişlərin əldə olunmasını nəzərdə tutur. Hazırda kafedranın daxili imkanları və BSM-də yaradılmış "Simulyasiya mərkəzi"nin texniki vasitələrinin koməyi ilə bu məsələ xeyli dərəcədə həll edilmişdir. Fəqət təcrübə göstərir ki, kafedrada maneken və mulyajlarla təchiz olunmuş xüsusi bir tədris otağının yaradılması praktik vərdişlərin tələbələr tərəfindən daha mükəmməl mənimsənilməsinə şərait-imkan yarada bilər. Burada söhbət əsasən "ilk həyat dəstəyi" tədbirlərindən gedir. |

| | | |
|---|---|---|
| 5 | “Anesteziologiya, reanimatologiya, intensiv terapiya” fənni üzrə test imtahanlarının sərbəst fənn imtahanı kimi təşkil edilməsi | 2018-2019-cu tədris ilindən etibarən Anesteziologiya və reanimatologiya kafedrasının yenidən təşkil olunması ilə bağlı MPF-nin və HTF-nin V kurslarında reanimasiya və intensiv terapiya bölmələri ilə yanaşı anesteziologiya bölməsi tədris olunmağa başlanmışdır. Bununla bağlı fənn imtahanının son illər olduğu kimi “daxili xəstəliklər” fənni ilə birlikdə aparılması düzgün hesab edilə bilməz, çünki anesteziologiya elmi cərrahi əməliyyatlar və manipulyasiyalar zamanı ağrısızlaşdırma məsələlərini öyrənir. Uyğun olaraq onun proqramı və testləri mövcuddur. |
| 6 | “Reanimatologiya” adlı fənn dərsliyinin “Anesteziologiya, reanimatologiya, intensiv terapiya” adı altında yeni nəşrinin təmin olunması | Hazırda kafedrada “Reanimatologiya” adlı dərslik və “Uşaq anesteziologiyası” adlı dərs vəsaiti mövcuddur. Günün tələbinə uyğun olaraq 2022-2023 tədris ili ərzində “Anesteziologiya” bölməsini əlavə etməklə “Anesteziologiya, reanimatologiya, intensiv terapiya” adlı dərsliyin nəşr etdirilməsi planlanır. |
| 7 | “Anesteziologiya, reanimatologiya, intensiv terapiyada praktik vərdişlər” adlı dərs vəsaitinin nəşr etdirilməsi | Tələbələr, rezidentlər və gənc həkimlər üçün yararlı olması düşünülən “Anesteziologiya, reanimatologiya, intensiv terapiyada praktik vərdişlər” adlı dərs vəsaiti üzərində bütün əməkdaşların iştirakı ilə çalışmalar davam edir və növbəti dərs ilində işıq üzü görməsi nəzərdə tutulmuşdur. |

**Kafedra müdiri:** **prof. İsmayılov İ.S.**

**29.06.2022**